# Yusif Nəğməkar mükafatlandırıldı



Tanınmış şair Yusif Nəğməkar Azərbaycan Yazıçılar Birliyinin Mikayıl Müşfiq Komissiyasının qərarı ilə "Mikayıl Müşfiq" mükafatına layiq görülüb. Mükafat iyulun 15-də Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar tərəfindən təqdim edilib. Xalq yazıçısı Yusif Nəğməkara yaradıcılıq fəaliyyətində uğurlar arzulayıb. Görüşdə Beynəlxalq Mahmud Kaşğari Fondunun sədri, millət vəkili Cavanşir Feyziyev də iştirak edib. Millət vəkili Cavanşir Feyziyev Yusif Nəğməkarı səksəninci illərdən tanıdığını və onun yaradıcılığına yaxından bələd olduğunu qeyd edərək, "Mikayıl Müşfiq" mükafatına layiq görülməsi münasibətilə təbriklərini bildirib. Yusif Nəğməkar diqqət və dəyərə görə Azərbaycan Yazıçılar Birliyinin rəhbərliyinə, Xalq yazıçısı Anara və eyni zamanda Cavanşir Feyziyevə minnətdarlığını ifadə edib.

AYB.az